# HÜSEYNOV İBAD MÖVSÜM OĞLU



İbad Mövsüm oğlu Hüseynov 18 oktyabr 1970-ci ildə Xocavənd rayonunda anadan olmuşdur. Rusiyanın Amur şəhərində yerləşən hərbi hissədə Sovet ordusunda qulluq etdiyi zaman Dağlıq Qarabağda ilk hərbi toqquşmalar başlanmışdır. 20 Yanvar faciəsindən xəbər tutan İ.Hüseynov digər Azərbaycanlı hərbçilər ilə birlikdə vətənə buraxılmaq məqsədilə müddətsiz aclıq aksiyası keçirmiş, nəticədə onlar sovet ordusundan 4 ay öncədən tərxis edilmişlər. O, 1990-cı ildə Azərbaycana qayıtdıqdan sonra Xocavənd rayonuna gedərək orada qardaşı Eyvaz Hüseynovun yaratdığı könüllü özünümüdafiə batalyonuna qoşuldu. Hərbi sursat və texnika olmadığından İbad Hüseynov “kəşfiyyat-diversiya dəstəsi” yaratmış, ermənilərin çox sayda silah və təchizatını ələ keçirərək dəstənin silahlanmasında böyük rol oynamışdır. İbad Hüseynov Qarabağ ərazisində baş tutan qətliamlarda, eləcə də, “Xocalı soyqırımı”nın törədilməsində birbaşa iştirak edən və düşmən birləşmələrinə rəhbərlik edən Xocavənd rayonundakı hərbi qarnizonun komandiri Avo ləqəbli erməni terrorçusunu 1993-cü il iyun ayının 11-dən 12-nə keçən gecə Muğanlı kəndində məhv etmişdir. 26 dekabr 1993-cü ildə minaya düşərək ağır yaralanmış, 28 gündən sonra koma vəziyyətindən çıxmışdır. Düşdüyü mina onu birinci qrup Qarabağ əlilinə çevirsə də, ordu sıralarından ayrılması üçün edilən çağırışları eşitmək belə istəmirdi. Elə bu şəkildə də daha 3 il orduda qulluğunu davam etdirdi. Azərbaycan Respublikası Prezidentinin 9 oktyabr 1994-cü il tarixli fərmanı ilə İbad Hüseynov “Azərbaycan bayrağı” ordeni ilə təltif olunmuşdur. 2010-cu ildə Bakıda, "Azərbaycanfilm" kinostudiyasında İbad Hüseynova həsr edilmiş “Əsgər” sənədli filminin təqdimat mərasimi olmuşdur. Film rejissor Etibar Məmmədov tərəfindən çəkilmişdir. Həmçinin, 2011-ci ildə rejissoru Etibar Məmmədov olan “Kəşfiyyatçı” sənədli filmi, 2013-cü ildə rejissor Kəmalə Mirzəyevanın quruluşunda “Qorxulu yuxuların qəhrəmanı” adlı film, 2016-cı ildə rejissoru Natiq Novruzov olan “Xüsusi təyinatlı İbad” bədii filmi, 2017 -ci ildə "Xüsusi Təyinatlı İbad - 2” filmi lentə alınmışdır. 2016-cı ildən Ağcabədi şəhərində yerləşən küçələrdən biri, 2017-ci ildən isə Abşeron Rayonu ərazisində yerləşən küçələrdən biri onun adını daşıyır. 28 aprel 2005-ci ildə Ankara şəhərində, 4 may 2017-ci ildə Türkiyə Respublikası Kırşəhər vilayətində yerləşən küçələrdən birinə kəşfiyyat komandiri olmuş İbad Hüseynovun adı verilmişdir. 30 avqust 2015-ci il tarixindən Türkiyənin Qaziantep şəhərində yerləşən parklardan biri onun adını daşıyır. 2015-ci ildə İ.Hüseynova Yeni Türkiyə Strateji Araşdırmalar Mərkəzi tərəfindən “Şərəf” medalı təqdim olunmuşdur. 2016-cı ildə Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi tərəfindən "Fədai" medalına, 2017-ci ildə Azərbaycan Respublikası Veteranlar Təşkilatı tərəfindən “General Səməd Bəy Mehmandarov” adına medala, 2018-ci ilin aprel ayında Türkiyənin Adana şəhərində keçirilən “Dünya Avşarlar” qurultayında “Dünya Avşarlar Dərnəyinin” təsis etdiyi “Üstün Cəsarət” medalına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə ehtiyatda olan baş çavuş Hüseynov İbad Mövsüm oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi igidliyə görə “Azərbaycan Milli Qəhrəmanı” fəxri adına layiq görülmüşdür.